The Interview Times.
Buraxılış No.4 Aprel, 2022 Pulsuz

# Rza Aliyev



## Biography

*2011-ci ildə ADA-nın ilk magistr proqramının məzunudur. Hazırda BP-nin London ofisində Xarici Əlaqələr və Tərəfdaşlıq üzrə Menecer vəzifəsində çalışır. Dünyaca məşhur "Schwarzman" təqaüdünün ilk məzunlarındandır və bu təqaüdü alan ilk Azərbaycanlıdır. BP-dən öncə Nizami Gəncəvi Beynəlxalq Mərkəzi, Andbank, Credit Andorra, BMT və ADA Fondunda müxtəlif vəzifələrdə çalışmışdır. Bakalavr və doktorantura təhsilini Prezident yanında Dövlət İdarəçilik Akademiyasında, magistr təhsilini ADA Universitetində, 2-ci magistr təhsilini isə Çinin Tsinghua Universitetində almışdır. Karyerası boyunca Robert De Niro, Lord Rotşild, Fareed Zakaria kimi bir çox dünyaca tanınmış şəxslərlə görüşmək imkanı əldə etmişdir. 10-dan artıq ölkədə yaşayıb və 5 dildə sərbəst danışa bilir.*

**Bu günədək neçə ölkə Prezidenti ilə görüşmə imkanınız olub?**

Baxır cari yoxsa sabiq, ancaq ümumilikdə 70-80-nə yaxın ölkənin Prezident və Baş nazirləri ilə görüşmə imkanım olub.

**ADA Universitetində magistr tələbəsi olarkən Tələbə Hökümətinə Prezident kimi öz namizədliyinizi vermişdiniz. Ancaq Prezident seçilmək sizə qismət olmadı, ikinci oldunuz. Buna baxmayaraq, ADA-dan məzun olduqdan sonra dediyiniz kimi 70-dən çox fərqli ölkə Prezidenti və ya baş naziri ilə görüşləriniz olub. Hansı sizin üçün daha çox əhəmiyyət kəsb etmiş olardı?**

Bir neçəsi həyatımda çox böyük rol oynayıb, hər birindən hansısa bir detal öyrənmişəm. Məsələn, qərar vermə prosesi baxımından Latviyanın sabiq Prezidenti Vayra Vike-Freyberqa böyük bir rol oynayıb həyatımda. Mən ADA-da oxuyan zaman o, ADA-aya gəlmişdi və mən onu orada tanıdım ilk dəfə olaraq. Qərar vermə prosesində çətinlik səviyyəsindən asılı olmayaraq onun moderatorluq bacarığı çox maraqlı idi, həm qərar vermə, həm də həmin qərarı başqalarına qəbul etdirmək baxımından. İnsanın liderlik xüsusiyyəti elə bir aura yaratmışdı ki, hər kəs onu diqqətlə dinləyir və hər sözünü dəstəkləyirdi. Həmin xanım, Prezident olduğu dövrdə Latviya Avropa Şurası və NATO-ya daxil olmuşdur. Başqa maraqlı bir xüsusiyyəti mən Bill Klinton-da görmüşdüm, onunla BMT-də keçirilən görüş zamanı vaxt sanki dayanmışdı. Ətrafda bir sıra səlahiyyətli şəxslər var idi, hər kəs qaça-qaçda idi, və mühit çox səs küylü idi, ancaq o mənimlə elə formada ünsiyyət qururdu ki, mənim bütün diqqətimi özünə cəlb etmişdi və mən elə hiss edirdim ki, sanki ətrafda heç kim yoxdur və biz qapalı məkandayıq. Bu yaxınlarda isə, mən Netflix-in

bir web-tədbirində iştirak etdim və orada Bill və Hillari Klinton öz master-klasslarını keçdilər. Hillari Klinton öz çıxışında yoldaşının , mən 5-6 il öncə görüş zamanı müşahidə etdiyim həmin liderlik xüsusiyyətini vurğulamışdı. Başqa bir maraqlı hadisə isə, ölkə başçısına aid olmasa da, mənə önəmli bir dərs verdi və hər zaman onu yadda saxlayıram. İlk dəfə Henri Kissincer ilə nahar vaxtından sonra onun ofisində görüşəndə, biz ona Nizami Gəncəvi Beynəlxalq Mərkəzi barədə ətraflı məlumat verirdik və bir an başa düşdük ki, cənab Kissincer yavaş-yavaş yuxuya getdi. Həmin məqamda bilmirdik nə edək, danışaqmı və ya sakitcəsinə otağı tərk edək. Və qərara gəldik ki, təqdimatımızı davam edək. Maraqlısı odur ki, biz nitqimizi bitirən kimi, Henri müəllim gözlərini açıb biz danışdığımız mövzunu davam etdi. Mən onda başa düşdüm ki, o, enerjisini belə toplayır və mən bu hadisədən o nəticəyə gəldim ki, deməli insanlar müxtəlif cür informasiyanı qəbul edirlər və biz gördüyümüz görüntü reallıqdan fərqli ola bilər.

**İndi də gecələr Londonda olarkən Zəlimxan Yaqubun şeirlərinə, Azərbaycan dastanlarını təsnif etməsinə qulaq asırsınız?**

(gülür) Bəli, qulaq asıram. Ümumiyyətlə, ADA-da oxuduğum zamanlar ABŞ-da səfirlikdə təcrübə keçərkən və Azərbaycandan tam getdikdən sonra doğma yurd üçün çox darıxırdım. Baxmayaraq ki, məktəbi və universiteti rus dilində, magistr təhsilimi isə ingilis dillində almışdım, Azərbaycan musiqisini həmişə dinləmişəm. Lakin, təəssüf ki, bizim ədəbiyyatımızı çox da oxumamışam. Təxminən 3-4 il öncə bir məclisdə olarkən tanışlarım şeir deməyə başladılar və bu mənim üçün bir cür Azərbaycan şeirlərinin gözəlliyinə teleportasiya oldu. Ondan sonra bizim ədəbiyyatımızı kəşf etməyə başladım və Zəlimxan Yaqub, Vahid Əziz və digər gözəl şairləri daim oxuyuram. 30 yaşıma qədər yaranan bu boşluğu indi çalışıram aradan qaldırım və böyük bir maraqla bizim mədəniyyətimizi kəşf edirəm.

**Bir çox xarici səfərlərdə olmusunuz. İordaniya səfərini bütün bunların pik nöqtəsi adlandırmaq olarmı?**

İordaniya səfəri çox gözəl idi. Sivilizasiyanın beşiyi olduğu üçün çox maraqlı yerləri var. Həmin səfərdən mənim üçün ən maraqlı məkan Musa Peyğəmbərin taxta ilə vurduğu su çıxan yer və İsa Peyğəmbərin baptiz olduğu çay idi. Məsələn, indi Londonda yaşayarkən başa düşürəm ki, İordaniyanın qədim abidələri necə də baxımsız vəziyyətdədir. Bəzi abidələrin ətrafı çirkli və ya qraffiti yazılar ilə əhatə olunmuşdu və görünürdü ki, bu cür gözəl abidələrə layiqli dəyər verilmir. Mən 2021-ci ildən bəri "Dünya Abidələr Fondu"nun İdarə heyətinin üzvüyəm və komandamız mədəni irsin qorunması istiqamətində müxtəlif işlər aparır. Təəssüflər olsun ki, iqlim dəyişikliyi ilə bağlı okean ətrafı sahillər və bir çox abidələr itəcək. Bizim komandamızın işi isə abidələri gələcək nəsillər üçün qorumaq imkanlarının öyrənilməsi və gələcəkdə rəqəmsal modelin yaradılmasıdır.

**Ən yadda qalan doğum gününüz və əldə etdiyiniz hədiyyə?**

Azərbaycandan köçdükdən sonra ən böyük doğum günü arzum həmin günü bütün dostlarım ilə birlikdə keçirmək idi. Bir sıra ölkələrdə yaşadığım üçün hər birində dostlarım var və onları bir araya yığmaq çətindir. Xatırlayıram ki, bir neçə ölkəni səfər edərək bir ay ərzində 6 dəfə ad günü qeyd etmişəm. O mənim üçün ən yadda qalan ad günlərindən biri idi, çünki hamını bir yerə yığa bilməsəm də, ən azından dostlarımın böyük hissəsini görə bildim. Hədiyyəyə gələrkən isə, mənim üçün ən gözəl və ən dəyərli hədiyyə yüksək qiymətləndirmədir. Xüsusilə, NGBM-də çalışarkən müxtəlif ölkə Prezidentləri, cənab Yuşşenko, cənab İvanov və digərləri mənə qiymətləndirmə və təşəkkür sertifikatları bağışlamışdılar. Əlavə olaraq da video çarx hazırlayaraq hər biri mənim doğum günümü təbrik etmişdilər. Onların mənim işimi dəyərləndirmələri mənim üçün ən böyük və xüsusi hədiyyə idi.

Пирцхалава Ираклий – **bu pop ulduzun Nabranda, Atlantdakı konsertində iştirak etmisiniz. Təəssüratlarınızı bölüşə bilərsinizmi?**

2009-ci ildə konsert keçirilmişdi və mən o vaxtlar "Ulduzlar Fabrikası" adlı mahnı yarışmasını maraqla izləyirdim. Qardaşımla birlikdə getmişdim və hətta həmin konsertdən olan şəkil indiyə kimi gözümün qabağındadır. Səhv etmirəmsə, mənim Nabrana son səfərim elə 2009-cu ilə baş tutub. Üç il öncə isə anam Londona gələndə, onunla Hayd Park-da keçirilən musiqi festivalına getdik və eyni tipli şəkil orada da çəkdirdik: ana ilə mən ön sırada, arxada isə Selin Dion oxuyurdu.

**Zəngin imzalı kitab kolleksiyanız var. Kimlərin adlarını çəkə bilərsiniz?**

Mən ümumiyyətlə kitab oxumağı çox sevirəm və çalışıram eyni vaxtda 2-3 kitab oxuyum, birindən yorulanda keçirəm digərinə və bu çox rahat olur. Bəli, imzalı kitab kolleksiyam da var və o, mənim üçün çox maraqlıdır. Sabiq ölkə Prezidentləri ilə danışarkən onların maraqlı həyatına qulaq asandan sonra, kitablarını oxumaq mənim üçün dəyərlidir. Bəli, insanların kitablarından çox məqam öyrənirəm. Məsələn, Henri Kissincer, Stiv Şvartsman, Rotşild və s. kimi insanlar öz kitablarını mənə hədiyyə edib imzalayıblar və onları oxumaq mənim üçün çox maraqlı idi. Və ən maraqlısı bunda idi ki, onların hər biri mənim adımı müxtəlif formada yazırdılar, məsələn, biri Reza yazırdı, digəri Riza, başqa biri Rizo və s.

**2011-ci ildə ADA-da "Good Neighborhood" adında ətraf mühitin təmiz saxlanılması ilə bağlı layihəniz Hacı Zeynalabdin Tağıyev mükafatına layiq görülür, ilk dəfə olaraq. İndi isə 2022-ci ildir və hazırda #climatechange and #sustainability work üzrə "UK National Committee on China"-nın üzvüsünüz və Baş Layihə Rəhbəri vəzifəsini icra edirsiniz. Bu bir təsadüfdür, yoxsa sizin ətraf mühitin qorunmasına qarşı xüsusi bir marağınız var?**

Mənim bu mövzuya böyük bir marağım var. Son 2 aya qədər BP-də Strategiya və Davamlılıq komandasında çalışdım və mənim həyatım bir başa iqlim dəyişikliyi ilə bağlı idi. Ümumilikdə isə, biz

hal hazırda 115 illik fəaliyyəti olan BP kimi şirkəti dəyişib, onu daha ekologiya yönümlü şirkət etməyə çalışırıq. Deməkolar ki, “Good Neighborhood” ilə oxşar bir layihədir. Həmin vaxt ADA-nın ilk binasında oxuyurduq və bir neçə qurumu birləşdirib ətraf mühit yönümlü bir mühit yaratmağa çalışırdıq. İkinci magistr təhsilimi mən 1 il ərzində təqaüdçü olaraq Çində oxumuşam və orada yaşayan dövrdə mən səmanı ancaq bir-iki dəfə göy görmüşəm. Əksər vaxtı ora çox dumanlı olurdu və havanın çirklənməsi o dərəcədə idi ki, hətta, nəfəs almaqda çətinlik çəkirdik. Bundan öncəki vəzifəmdə isə mən sırf iqlim dəyişikliyi ilə məşğul idim və deyə bilərəm ki, Böyük Britaniya bu istiqamətdə çox böyük iş aparır və önəmli addımlar atıb. Məsələn, 2030-cu ilə qədər burada daxili yanma mühərrikli avtomobillər artıq olmayacaq. Kömür artıq burada istifadə olunmur və 2050-ci ilə qədər karbon qazının atmosferə buraxılması ilə bağlı net-zero ölkə olmağı planlaşdırır. Çin Britaniyanın bu təcrübəsi ilə çox maraqlanır və 2060-cı ilə qədər net-zero ölkə olmağı hədəfləyir. Bu yaxınlarda Mançester şəhərinin meri ilə Çinin konsulluğu arasında danışıqlar apardıq və Mançesterlə Uhan qardaş şəhərləri olduğunu nəzərə alaraq təcrübə mübadiləsini başlamağı planlaşdırırıq. Öz ölkəm olmamasına baxmayaraq, biləndə ki, sən bir neçə insanın həyatında problemi aradan qaldırırsan və bu işlə məşğul olan çox məhdud sayda məsul şəxslərdən birisən, bu çox böyük bir zövq gətirir insana. Hər iki ölkə bu layihəni dəstəkləyir və apreldə böyük bir sammit keçiriləcək. Son olaraq demək istəyərdim ki, hər insan kiçik bir addımları ilə bu qlobal problemin aradan qaldırılmasında rol oynaya bilər və Bakıda olarkən mənim ətrafımda çox az insan ətraf mühitin qayğısına qalırdı. Lakin, mən əminəm ki, ADA-da belə bir təcrübə var.

**Gecikdiyiniz üçün neçə dəfə təyyarə buraxmısınız?**

(gülür). Olub, bəziləri xarici səbəblərdən, bəziləri isə öz səhvimə görə baş verib. Hətta bir dəfə Kann festivalından qayıdarkən iki təyyarəni buraxmışam.

**Eşitdiyim qədərilə qardaşınız çox kreativ bir insandı və arxitektor olaraq fəaliyyət göstərir. Spesifik hansı əl işini qeyd edə bilərsiniz?**

Qardaşım Rəcəb, çox yaxşı memardır və kreativ insandır. Səməd Vurğun rezidensiyanın, Milli Bankın binasının və s. memarlıq cəhətdən inkişafında qardaşım iştirak edib. Hal hazırda Londonda bir neçə layihələri var və mən inanıram ki, gələcəkdə qardaşım Azərbaycanı beynəlxalq səviyyədə təmsil edəcək. Mən həmişə düşünmüşəm ki, qardaşımın memarlıqda futuristik yanaşması var. Mən isə daha çox ənənəvi memarlığı bəyənirəm. Biz tam fərqliyik, mənim kreativliyim varsa da, digər ailə üzvlərimə çatmaram. Atam və qardaşım memar, anam linqvist və hər üçü rəsm çəkə bilirlər.

**Səməd Vurğun parkı vs Çisvik parkı. Seçim arasında qalsaydınız, hansını seçərdiniz?**

(gülür). İkisi də gözəldir. Çisvick parkında mən hər səhər çıxıb qaçıram, asudə vaxtımı keçirirəm və xüsusilə bu park mənə pandemiya vaxtı doğma oldu. 2020-ci ilin mart ayında pandemiya başlayandan sonra növbəti 5 ayı mən tək qalmışdım, həmin parkda vaxtımı keçirirdim və uzun müddətli aktiv həyat tərzindən sonra bu ilk dəfə idi ki, mən sakit və rahat parkda gəzib hər məqamın zövqünü və ləzzətini alırdım. Eyni zamanda həmin dövrdə yemək bişirməyi öyrənmişəm və öz balkonumda meyvə, tərəvəz və göyərtini becərməyə başlamışdım. İş yükü çox olan dövrdə və pandemiya ilə əlaqədar ümumi dünyada nə baş verdiyini tam anlamayan zamanlarda, bu mənim üçün bir növ meditasiya idi. Və artıq 3 ildir ki, mən öz balkonumda meyvə və tərəvəz becərməyə davam edirəm və bu gözəl bir təcrübədir.

**Çox zəngin karyeranız var, demək olar ki, dünyanın dörd bir yanında olmusunuz, həm turist qismində, həm də işlə bağlı. Nə deyə bilərsiniz, ümumiyyətlə?**

Doğurdan da, Allaha şükür olsun, mən maraqlı həyat yaşamışam bu günə kimi və 33 yaşım olmağına baxmayaraq, ADA-dan başlayaraq çox maraqlı və aktiv həyatım olub. Əlbəttə, çətinliklər də olub, gözəl vaxtlar da olub. ADA mənə öyrətdi ki, sən arzu edirsən və həmin arzunu özün üçün reallaşdırırsan. Sadəcə arzu etməklə yox, bu arzuya aparan yolları dərk eləməlisən və onun üzərində çalışmalısan. Mələsən, həmin dövrdə mən BMT-də çıxış etmək istəyirdim və oturub fikirləşməyə başladım ki, bunun üçün nə etməliyəm və axırda öz arzuma çatdım. Ümumilikdə, insan həm karyera, həm də həyatda özünü komfort zonaya salmağa çalışır. Amma, mən fikirləşirəm ki, komfort zonada olarkən inkişaf azalır və ya tam dayanır və ona görə mən həmişə çalışıram həmin zonadan çıxım və özümü inkişaf etdirməyə çalışım. İlk öncə mənim üçün diplomatiya çox maraqlı bir dünya idi və istəyirdim orada olum. Uğur əldə etdikdən sonra komfort zonadan özümü atdım özəl bank sahəsinə, və bu tam başqa və yeni bir təcrübə idi mənim üçün. İş ilə əlaqədar 21 yaşımda köçmüşdüm Andorra-ya və tarix boyunca orada yaşayan ilk Azərbaycanlı idim. Bir neçə il keçdikdən sonra, 2016-cı ildə mən artıq hiss elədim ki, mən maliyyə sahəsini yaxşı öyrəndim və növbəti addım atmaq vaxtıdır. Həmin vaxtda Çində magistr təqaüd proqramını qazandım, və ətrafım məni israrla inandırmağa çalışırdı ki, Andorra-da qalım, ancaq mən isə komfort zonadan çıxıb yeni təcrübə qazanmağı seçdim. Çindən sonra Andorra-ya qayıtmalı idim, lakin, tamamilə yeri bir sahəyə üz tutdum və beləliklə 4.5 il öncə yeni ölkə və yeni sahəyə gəldim. O vaxtlar işin bəzi standart məqamlarını da bilmirdim, amma 4.5 il ərzində hamısını öyrəndim və sonradan BP daxilində “sustainability” üzrə departamentə keçdim. Əlbəttə ki, bu bir seçimdir: bəzi insanlar üçün komfort zonada olmaq xoşbəxtlikdir, mənim üçün isə fərqli ölkələrdə olub yenilikləri öyrənmək və bütün bilikləri yığıb axırda bir sintez yaratmaq maraqlıdır. Bir tərəfdən diplomatiya, digər tərəfdən maliyyə və son olaraq “sustainability”: bu 3 fərqli sahədən olan təcrübəm məndə daxilən çox maraqlı bir sintez yaradır və bu, mənim üçün həyata fərqli bir linzadan baxmağa imkan yaradır.

*Sualları hazırladı və müsahibəni götürdü:*

*El Presidente*

## QR-codu scan et və qəzetin növbəti buraxılışında yayımlan!

İdeya müəllifi: El Presidente
Dizayner: Nathan Kamanga
Redaktor: Fidan Namazova
Copywriter: Fəridə Eyvazova
Fullstack developer: Anar Bayramov
Vergi məsləhətçisi: Suğra Əsgərova
PR komandası: Alejandra Garcia Duran
Nərmin Zeynallı

*Scan edənlər arasından 1 nəfər "randomly" seçilərək qəzetin növbəti buraxılışında özü haqqında məlumat (1 ədəd şəkil, bio və ya uğur hekayəsi) yerləşdirmək imkanı əldə edəcək

The Interview Times.